# Şura iclasları

Dekabr ayının 4-də həmçinin 23-də Qəbələ Rayon İcra Hakimiyyətində növbəti şura iclası keçirilmişdir. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qanunsuz tikililər, aparılan tikinti işləri zamanı şəhərsalma və arxitektura tələblərinin, qanunsuz torpaq istifadəçiliyi və bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı RİH Başçısının Sərəncamı ilə rayon icra hakimiyyətinin məsul şəxslərindən ibarət təşkil edilmiş inzibati ərazi dairələri üzrə mobil qruplar tərəfindən həyat keçirilən zəruri tədbirlərdən danışmışdır. İclasda həmçinin Vətən müharibəsi şəhidlərinin ailələri, eləcə də müharibə əlilləri və iştirakçıları ilə görüşlərin keçirilməsi və onları narahat edən problemlərin həlli istiqamətində müvafiq işlərin davam etdirilməsi ilə əlaqədar tapşırıqlar verilmiş, rayon icra hakimiyyəti tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuş görüləcək işlər müzakirə edilmişdir.





**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulları



Həmişə olduğu kimi, RİH-nin başçısı Səbuhi Abdullayev dekabr ayında da vətəndaş qəbullarına daha diqqətlə yanaşmışdır. Noyabrın 24-də, dekabrın 1-i, 8-i və 22-də rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların qəbulları keçirilmişdir. Qəbullar zamanı Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin və digər vətəndaşların müraciətləri fərdi şəkildə dinlənilmiş, irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Növbəti şura iclasında

23 dekabr 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətində cari ildə müəyyən edilən tədbirlərin icra vəziyyəti və 2024-cü ildə qarşıda duran vəzifələrə dair növbəti şura iclası keçirilib. İclasda RİH başçısı yanında Şuranın üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri iştirak ediblər. Şura iclasını açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"a əsasən rayon üzrə inzibati ərazi nümayəndəliklərdə sənədlərlə aparılan işin təhlil edilməsi, rayon icra hakimiyyəti yanında fəaliyyət göstərən Qəyyumluq və Himayəçilik Komissiyasının gördüyü işlər və daxil olan məktublar və qışa hazırlıq işlərinin gedişi barədə məlumat verib. Qeyd olunub ki, ötən dövr ərzində nəzərdə tutulmuş bütün məsələlər icra olunub, məktəblərdə, səhiyyə ocaqlarında, mədəni-maarif müəssisələrində və digər təşkilatlarda qış mövsümünə hazırlıq işləri başa çatdırılıb. RİH başçısı diqqətə çatdırıb ki, qış mövsümündə rayonun bütün sosial obyektlərində, o cümlədən təhsil, səhiyyə ocaqlarında, uşaq bağçalarında, idarə və müəssisələrdə normal istilik yaratmaq, elektrik, qaz, su və yol təsərrüfatını fasiləsiz olaraq işlək vəziyyətdə saxlamaq hər bir cavabdeh şəxsdən böyük məsuliyyət tələb edir. Ona görə qarşıdan gələn bayram və qeyri-iş günlərində xidmət təşkilatlarının öz işinə məsuliyyətlə yanaşması, yaşayış məntəqələrinin bütün kommunikasiyalarının işlək vəziyyətdə olmasının nəzarətdə saxlanılması onlara bir daha tövsiyə olunub. Daha sonra Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Qəbələ Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ağayev Pərviz İsmət oğlu Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib. Sonda Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev bütün tədbir iştirakçılarını "31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və Yeni il bayramı münasibəti ilə təbrik edib.



# Səyyar qəbullar

Həyatda yaşayan hər kəs özünəməxsus bir tərzdə çətinliklərlə, problemlərlə qarşılaşır. Yaşadığı dövrdə isə onları həll etmək üçün mübarizə aparır. Bəzən elə problemlərlə qarşılaşır ki, onun həlli tək onun mübarizəsi ilə həll oluna bilmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin noyabr ayının sonunda və dekabr ayında səyyar qəbullar Qaradeyn, Qəmərvan, Zirik, Zalam kəndlərində və Bum qəsəbəsində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.





Qaradeyn kəndi.



Qəmərvan kəndi.





Bum qəsəbəsi.



Zirik kəndi.



Zalam kəndi.

**"Qəbələ"**

**Fotolar S. Umuyevindir.**